# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Strateji Yol Xəritəsinin reallaşdırılması və davamlı inkişaf üçün regional idarəetmə kadrları hazırlığı**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimli Rəcəb Zakir oğlu**
Qrantın məbləği: 24 900 manat
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/06/5-M-12**
Müqavilənin imzalanma tarixi: **24 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 oktyabr 2020-ci il – 01 aprel 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | 1. Pilot rayonlarda kadrların idarə edilməsinin optimallaşdırılması üçün bütövlükdə region üzrə kadrlara tələbatın metod və prinsiplərinin öyrənilməsi.<br>2. Kadrların fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi üçün meyarlar sisteminin işlənib hazırlanması, bu sahədə zəruri olan tədbirlərin müəyyənləşdirilməsi.<br>3. Regionun kadrlara perspektiv tələbatını bütövlükdə regionun təsərrüfat kompleksinin inkişaf proqnozları gözə alınaraq formalaşdırmaq.<br>4. Regional kadr hazırlığı sisteminin inkişaf etdirilməsi sahəsində təklif və tövsiyələrin, xüsusi modul və kurrikulumların hazırlanması.<br>5. Regional kadr hazırlığı sisteminin inkişaf etdirilməsi sahəsində hazırlanan modul və kurrikulumların ölkədə dövlət idarəçiliyi kadrlarının fasiləsiz təhsili prosesinə tətbiqi.<br><br>Layihənin yerinə yetirilməsi zamanı müqayisəli qiymətləndirmə və təhlil, sistemləşdirmə, modelləşdirmə və s. üsul və yanaşmalardan istifadə olunmuşdur. |

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | 100% |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |

Məlum olduğu kimi, Prezident İlham Əliyevin tətbiq etdiyi innovativ dövlət idarəçiliyi texnologiyaları sayəsində Azərbaycan Respublikası məhdud resurslarla qlobal prioritet sayılan davamlı inklüziv inkişaf sahəsində dünya liderliyinə yüksələ bilib. Azərbaycan Respublikasının çox qısa müddətdə dünyanın lider ölkələri sırasına yüksəlməsi zamanında Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu strategiya və Prezident İlham Əliyevin yüksək intellektli idarəçiliyi, bu məqsədlərə cavab verən dövlət qulluğu və kadr hazırlığı sisteminin qurulması sayəsində mümkün olub. Artıq qeyd olunduğu kimi, beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən, Azərbaycan Respublikası qısa zaman kəsiyində bir çox sahələrdə dünyanın nəhəng "G-7", "G-20" qruplarına daxil olan dövlətlərin göstəricilərini üstələyib. Əldə olunan uğurların davamlılığının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə ölkə Prezidenti cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, yüksək peşəkar səviyyəyə malik milli kadrların təkmilləşdirilməsinə ehtiyac regionlarda olduqca böyükdür. Bu ehtiyacın ödənilməsi baxımından regionların təbii resursları, demoqrafik, milli, mədəni, iqlim və digər xüsusiyyətləri nəzərə alınmaqla kadr siyasətinin formalaşdırılması çox vacib məsələlərdəndir. Regionlarda kadrların formalaşdırılması, təkmilləşdirilməsi və səfərbər edilməsi dövlət mi iqyasında olduğu kimi eyni iqtisadi və sosial qanunların işləməsinə əsaslanır. Lakin kadrların regional səviyyədə idarə edilməsinin fərqliliyi bu prosesin insan potensialının regionlararası miqrasiyası ilə əlaqədar natamam xarakter daşıması ilə bağlıdır. Miqrasiya nəticəsində bir regionda hazırlanan kadrlardan bəzən digər regionlarda istifadə olunur ki, bu da göstərilən sahədə planlaşdırmanı xeyli mürəkkəbləşdirir. Regionun kadrlara perspektiv tələbatını bütövlükdə ölkənin inkişaf proqnozları gözə alınaraq formalaşdırmaq lazımdır. İlk növbədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" 2 fevral 2021-ci il tarixli Sərəncamından irəli gələn hədəfləri, ölkədə davamlı inkişaf məqsədləri ilə uzlaşdırılmış sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyaları ilə, ölkə Prezidentinin qarşıya qoyduğu davamlı insan inkişafı, regionların sosial-iqtisadi potensialının gücləndirilməsi, yerli bilik və təcrübənin, mədəni və tarixi dəyərlərin qorunması, demoqrafiya və əhalinin lüzumsuz miqrasiyasının qarşısının alınma sı, yoxsulluğun azaldılması, gender bərabərliyi, demokratiya və özünüidarəetmənin inkişafı, məşğulluğun təmin olunması kimi vəzifələrlə şərtlənir ki, bu da yerlərdə davamlı inkişafın təmin edilməsinin keyfiyyətcə yeni konsepsiyalarının və texnologiyalarının işlənib hazırlanmasını tələb edir. Məhz bu aspektdən baxanda layihənin aktuallığı həm də aşağıdakı bir sıra səbəblərlə bağlıdır:

- Azərbaycan dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlər həyata keçirir, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmağa, onun dayanıqlılığını təmin etməyə yönəlik səylər göstərir. Bu, hər şeydən əvvəl regionlarda bu sahədə kadr hazırlığı ilə bağlı yeni ideya və modellərin tətbiq olunmasını zəruri edir. Bu baxımdan regionlarda kadr hazırlığı sisteminin yeni çağırışlara uyğunlaşdırılmasının aktuallığı şübhə doğurmur.
- İnsan potensialı əmək məhsuldarlığının artırılmasında, regionların davamlı inkişafında, rəqabət qabiliyyətinin yüksəldilməsində həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün

pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə xüsusilə regionlarda kadrların bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur.

- Regional kadr hazırlığı strategiyasının hazırlanması həmçinin yerlərdə əmək məhsuldarlığının yüksəldilməsi, kadr potensialının təkmilləşdirilməsi, sektorlararası keçidin optimallaşdırılması, insan potensialının keyfiyyətinin yüksəldilməsi kimi aktual məsələlərin həlli ilə bilavasitə bağlıdır.

Qeyd etmək lazımdır ki, indiyədək qazanılan nailiyyətlər 44 günlük Vətən müharibəsindəki tarixi qələbəyə də transformasiya olunub. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Hazırda Azərbaycanın postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğu təsdiqlənib. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə dövlətin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir. Bu prioritetlərin uğurla reallaşdırılması baxımından dövlət idarəçiliyi üçün, xüsusilə də regional müstəvidə, yüksək səviyyədə və fərqli istiqamətlərdə fəaliyyət göstərən müasir bilik və bacarıqlara malik kadr potensialının formalaşdırılması vacib şərtdir. Bu baxımdan yekunlaşdırdığımız layihə qeyd olunan tendensiyanın davam etdirilməsinə hesablanıb və layihə gedişində sözügedən dəyişikliklər nəzərə alınmaqla aşağıdakı nəticələr əldə edilib:

1. Regional dövlət idarəçiliyi kadrlarının hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması institutunun fəaliyyət səmərəliliyinin yüksəldilməsinin ən təsirli vasitəsi kimi regional müstəvidə kadr hazırlığı sisteminin fərdi sxemlər əsasında və nəticəyönümlü formalaşdırılması mexanizmi hazırlamışdır.

2. Regional səviyyədə kadr hazırlığının səmərəliliyinin artırılması üçün təcrübədə layihələndirmə və strateji menecment texnologiyalarının tətbiqi, təhsildə müasir idarəetmə metodlarının reallaşdırılması potensialına malik idarəetmə komandasının formalaşdırılması məqsədi prioritet kim irəli sürülmüşdür. Bu, regionda innovasiyalara açıq, dəyişikliklərə və cəmiyyətin, iqtisadiyyatın tələblərinə çevik adaptasiya edə bilən kadr hazırlığı idarəetmə sisteminin qurulmasına gətirib çıxarır.

3. Kadr hazırlığı sisteminin yeni rolunun və dövlətin cəmiyyət qarşısında təhsil sahəsində məsuliyyətinin müəyyənləşdirilməsi bu rolun reallaşdırılmasının yeni mexanizmlərinin və təhsil infrastrukturunun yeni modelinin tətbiqini nəzərdə tutur. Eyni zamanda kadr hazırlığı sisteminin inkişafına marketinq yanaşmasından istifadə resursların səmərəliliyinin yüksəlməsinə yol açacaqdır. Bu variantın reallaşmasının başlıca şərti göstərilən idarəetmə modelində vətəndaş cəmiyyəti institutları və biznesin əməli iştirakıdır. Nəticədə özünü inkişaf etdirən, vətəndaş və əmək bazarının tələbatlarını ödəyən innovativ fasiləsiz təhsil sistemi qurulur.

4. Kadr hazırlığı sisteminin idarə edilməsinin aktual metodları sırasında müxtəliflik prinsipinə dayanan və insan faktorunu nəzərə alan təşkilati şəbəkələrin yaradılması və istifadəsi, təhsil innovasiyaları klasterlərinin formalaşdırılması, dövlət-özəl tərəfdaşlığı formalarının tətbiqinin yer alması təhsilin keyfiyyətinin və onun regional müstəvidə cəmiyyətin prioritet məqsədlərinə uyğunluğunun təmininə zəmin yaradır.

5. Ölkənin inklüziv inkişaf sahəsində dünya liderliyinin qorunmasını təmin edəcək kadr potensialının formalaşdırılması üçün yeni tədris texnologiyalarının istifadəsi ilə təlimlərin təşkili, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tətbiq etdiyi innovativ idarəetmə texnologiyalarının tədqiqi və elmi təhlilinə əsaslanaraq daha yeni, önləyiçi təlim istiqamətləri müəyyənləşdirilib və bu sahədə elmi-metodik təminat hazırlanıb. Bu xüsusda gələcəkdə hazırlanacaq elmi-metodik vəsaitlərin məzmun strukturunun layihə idarəetməsinə

keçid tələblərinə, dövlət proqramları və sahələrin innovativ inkişafı layihələrinə cavab verməsi zəruri şərtdir.

6. Ölkənin prioriteti olan inklüziv cəmiyyətin formalaşmasında vətəndaş cəmiyyətinin üstün rolunun, dövlət-özəl sektor-vətəndaş cəmiyyəti işbirliyinin inkişaf proseslərinə töhfəsinin tədqiqi nəticələrinə əsaslanan təlimlərin keçirilməsinə başlanılıb.

7. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il Sərəncamı ilə müəyyənləşdirilmiş ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması naminə insan potensialının, xüsusilə də dövlət qulluğunun insan potensialının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilib təlim prosesində tətbiq edilib.

8. Azərbaycanın ərazi bütövlüyünün təmini və Vətən müharibəsində qeyd-şərtsiz Zəfər xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Hazırda ölkədə dövlət qulluqçuları qarşısında duran mühüm vəzifə işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın uğurlu təmin olunmasına yönəlik fəaliyyətdir. Bu fəaliyyətin səmərəliliyi baxımından dövllət qulluqçularında innovativ idarəetmə, yüksək keyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanı və s. ilə bağlı bilik və bacarıqların formalaşdırılmasına yönəlik elmi təhlillərə əsaslanan təlim proqramlarının hazırlanmasına başlanılıb.

9. Regional səviyyədə dövlət qulluqçularının əlavə təhsili alma motivasiyasının azalması probleminin həlli yolları müəyyənləşdirilib. Belə ki, nəticələri onların peşəkar inkişafı və karyera yüksəlişi üçün baza rolunu oynayacaq regional kadr hazırlığı sisteminin formalaşdırılması imkanları təhlil edilib və sınaqdan keçirilib. Həmçinin kadr ehtiyatının idarə edilməsi və vakant vəzifələrə təyin olunması prosesində nəzərə alınacaq səviyyədə keyfiyyətli ixtisasartırma hazırlığı sistemi təcrübədə sınanıb. Layihə gedişində dövlət qulluqçularının əlavə təhsili sahəsində mükəmməl regional model ortaya qoyulub. Bu model dövlət idarəçiliyi kadrlarının və vətəndaş cəmiyyəti institutları liderləri və könüllülərin idarəçilik kompetensiyalarının inkişafına yönəldilib.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. Rahimli Rajab Zakir, Dadashova Ramila Behlul, Omarov Vahid Allahverdi. "Formation of Regional Staff Training System at a New Level By The Application of Multidisciplinary Approaches and Information and Communication Technologies". Magyar Tudomanyos Journal, № 49 (2021), Budapest, Hungary. pp.36-40 http://magyar-journal.com/wp-content/uploads/2021/03/Magyar_49.pdf (29.01.2021).

2. Rəcəb Rəhimli, Anar Həsənov. "Dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin artırılması: kadr hazırlığı və səriştə modelinə keçid". UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası. "İnsan və Biosfer" (MaB, UNESCO) Azərbaycan Milli Komitəsinin əsərləri. Ekoloji Sivilizasiya, Davamlı İnkişaf, Ətraf Mühit. İllik nəşr, Bakı, Təhsil, (15) 2020 s. 165-182 (Çapdadır)

5 İxtira və patentlər, səmərələşdirici təkliflər

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

| | |
|---|---|
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak<br>*(burada doldurmalı)* |
| | |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Gəncə şəhəri, İsmayıllı və Sabirabad rayonlarından dövlət qulluqçuları fərdi proqramlar əsasında fasiləsiz təhsil prosesinə cəlb olunub. Regionda innovasiyalara açıq, dəyişikliklərə və cəmiyyətin, iqtisadiyyatın tələblərinə çevik adaptasiya edə bilən kadr hazırlığı, kadr hazırlığı sisteminin fərdi sxemlər əsasında və nəticəyönümlü formalaşdırılması meylləri, kadr hazırlığı sisteminin idarə edilməsində təşkilati şəbəkələrin yaradılması və istifadəsi, təhsil innovasiyaları klasterlərinin formalaşdırılması, dövlət-özəl tərəfdaşlığı formalarının tətbiqi mövzularında online seminarlar təşkil edilmişdir.<br>Heydər Əliyev Fondunun "Regional İctimai İnkişaf Birliyi" ilə ölkənin 10 iqtisadi rayonu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə imzalanmış müqaviləyə əsasən "ASAN xidmət" mərkəzlərində dövlət qulluqçuları üçün yeni modular əsasında distant təlimlər təşkil olunmuşdur. Təlimlər gedişində həmçinin ölkənin Milli Prioritetləri və regional inkişaf hədəfləri nəzərə alınmaqla rəqabətqabiliyyətli və davamlı iqtisadiyyat, yaşıl istehsalın formalaşdırılması üçün indikatorlar sisteminin formalaşdırılması və tətbiqi imkanlarına dair biliklər aşılanıb. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | 1. Kolumbiya Universitetinin professoru **Con Lourens**-ABŞ<br>2. Kolumbiya Universitetinin professoru **Ceffri David Saks** -ABŞ<br>3. Ankara Universitetinin professoru **Onur Ender Aslan**-Türkiyə<br>4. Ankara Universitetinin professoru **Aslı Akay**-Türkiyə<br>5. Gelişim Universitetinin rektoru, professor **Burhan Aykaç**-Türkiyə<br>6. Lomonosov adına Moskva Dövlət Universiteti, Dövlət İdarəçilik Məktəbinin direktor müavini **Vladimir Yeremin**-Rusiya<br>7. Qotenburq Universiteti Dövlət İdarəçilik Məktəbinin professoru **Qreq Buken Knap**- İsveç<br>8. Belarus Respublikası Dövlət Kadr Siyasəti Araşdırma Mərkəzinin direktoru- **Mariya Semerikova** – Belarus<br>9. Estonya Respublikası Tallin Universitetinin dosenti-**Tanya Dibou**-Estonya<br>10. Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası- **Nizami Məmmədov**-Rusiya |

| | |
|---|---|
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Aparıcı məsləhətçi**
**Hüseynzadə Leyla İlqar qızı**

__________________
**(imza)**
"13" aprel **2021-ci il**

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Rəhimli Rəcəb Zakir oğlu**

__________________
***(imza)***
"13" Aprel **2021-ci il**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Strateji Yol Xəritəsinin reallaşdırılması və davamlı inkişaf üçün regional idarəetmə kadrları hazırlığı**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimli Rəcəb Zakir oğlu**
Qrantın məbləği: **24 900 manat**
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/06/5-M-12**
Müqavilənin imzalanma tarixi: **24 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 oktyabr 2020-ci il – 01 aprel 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulma

## Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ilin dekabrında Cenevrədə keçirilən Dünya Sammitində "qara qızılın insan qızılına transformasiyası" konsepsiyasını elan etdi və son 17 ildə ölkədə neftdən əldə edilən gəlirlərin insanların müasir bilik və bacarıqlarının formalaşmasına, insan potensialının inkişafına, bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi istiqamətində mühüm addımlar atıldı. Dövlət başçısı İlham Əliyevin irəli sürdüyü "Neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir" tezisi bugünkü reallıqlarımızda öz əksini tapıb və "qara qızıl"ın insan kapitalına çevrilməsi uğurlarımızın davamlılığını şərtləndirməkdədir. Bu reallıqlar fonunda xüsusilə regionlarda ölkənin inkişaf hədəflərinə cavab verən kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi qarşıda duran vacib vəzifələrdəndir. Hazırkı mərhələdə kadr potensialının formalaşmasında əsas məqsəd kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi və regional kadr hazırlığı sisteminin |

təkmilləşdirilməsidir. Bu çərçivədə başlıca vəzifə kadr hazırlığı istiqamətlərinin düzgün müəyyənləşdirilməsindən ibarətdir. Dövlət qulluğu kadrlarının hazırlığı istiqmətlərinin müəyyənləşdirilməsi zamanı ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi və 44 günlük Vətən müharibəsində parlaq Qələbədən sonra 2 fevral 2021-ci il Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn vəzifələr diqqətdə saxlanılmalıdır. Azərbaycan Respublikasının 2030-cu ilədək prioriteti inklüziv cəmiyyətin formalaşdırılmasıdır. Bu hədəfə çatmaq üçün regionların potensialının düzgün qiymətləndiriilməsi, ümumi inkişaf proqramlarında iştirakının dəyərləndirilməsinə dair tədqiqatların aparılması və elmi təhlil nəticələrinə əsaslanan kadr hazırlığı sisteminin təşkili mühüm əhəmiyyət kəsb edir. Bu məqsəd qeyd edilən istiqamətlərdə tədqiqatların nəticələrinə əsaslanan modul və proqramların hazırlanması və treninq, təlimlərin keçirilməsini ehtiva edir. Layihə çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsindən irəli gələn vəzifələr çərçivəsində regional səviyyədə mövcud insan potensialının qiymətləndirilməsi, idarəetmə kadrları hazırlığı sahəsində mövcud problemlərin müəyyənləşdirilməsi və riyazi-statistik təhlilin nəticələrinə əsaslanan regional strategiya işlənib hazırlanmışdır. Strategiya çərçivəsində regionların davamlı inkişafını təmin edəcək kadr potensialı öyrənilib, bu sahədə mövcud problemlər və inkişaf istiqamətləri müəyyənləşdirilib, qarşıya qoyulan məqsədlər, regionlarda davamlı inkişaf hədəflərinə uyğun çağırışlarlaa yaqlaşa biləcək innovativ kadr hazırlığı sisteminin təkmilləşdirilməsi üçün kurrikulum və modullar hazırlanıb, regionların davamlı inkişafının planlaşdırılması, idarəedilməsi və monitorinqi prosesində sosial, iqtisadi amilləri nəzərə alan multidissiplinar yanaşmanın tətbiqi ilə kadr hazırlığı sisteminin optimal idarəetmə modeli sınaqdan keçirilib. İlkin olaraq tədqiqatlar və kadrların inkişaf potensialının qiymətləndirilməsi, həmçinin kadr hazırlığı modelinin tətbiqi ilə bağlı təlim və treninqlərin təşkilinin 3 pilot rayonda (Gəncə, İsmayıllı, Sabirabad) gerçəkləşdirilməsi nəzərdə tutulsa da, Heydər Əliyev Fondunun "Regional İctimai İnkişaf Birliyi" ilə ölkənin 10 iqtisadi rayonu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə imzalanmış müqaviləyə əsasən "ASAN xidmət" mərkəzlərində dövlət qulluqçuları üçün yeni modular əsasında təlimlər təşkil olunmuşdur. Təlimlər gedişində həmçinin ölkənin Milli Prioritetləri və regional inkişaf hədəfləri nəzərə alınmaqla rəqabətqabiliyyətli və davamlı iqtisadiyyat, yaşıl istehsalın formalaşdırılması üçün indikatorlar sisteminin formalaşdırılması və tətbiqi imkanlarına dair biliklər aşılanıb. İnklüziv cəmiyyətin qurulması məqsədi qlobal və ölkədə prioritet kimi 2018-ci ildən müəyyənləşdirilib və Prezident İlham Əliyevin 2 fevral 2021-ci il Sərəncamı ilə bir daha təsdiqlənib. Bu istiqamətdə xüsusilə ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə önəmli tədbirlər həyata keçirilib. Qeyd etmək lazımdır ki, Azərbaycanın bu sahədə bir çox iklərə imza atması beynəlxalq qurumların da hesabatlarında təsdiqini tapıb. Bu çərçivədə dünyada "İnklüziv inkişafın əsasları" adlı ilk dərslik və tədris proqramı Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasında hazırlanıb və nəşr edilib. Eyni zamanda kadr hazırlığında regionların inklüziv inkişafı, innovativ idarəetmə texnologiyaları barədə biliklərin tədrisi və tətbiqi həyata keçirilib. Bu nəticələr ilk dəfə Azərbaycanda əldə edilib və tətbiq olunduğundan məlum analoqları yoxdur.

| | |
|---|---|
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tətbiq etdiyi yeni innovativ idarəetmə texnologiyalarının tədqiqinə əsaslanaraq daha yeni, önləyiçi təlim istiqamətləri müəyyənləşdirilərək bu sahədə elmi-metodik təminat hazırlanmışdır. 2030-cu ilədək ölkənin prioriteti kimi müəyyənləşdirilən inklüziv cəmiyyətin formalaşmasında vətəndaş cəmiyyətinin üstün rolunun, dövlət-özəl sektor-vətəndaş cəmiyyəti tərəfdaşlığının inkişaf proseslərinə |

| | |
|---|---|
| | töhfəsinin tədqiqi nəticələrinə əsaslanan, eyni zamanda ölkə Prezidentinin 2 fevral 2021-ci il Sərəncamı ilə müəyyənləşdirilmiş sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetin reallaşdırılması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın uğurlu təmini məqsədilə naminə rəqabətli insan kapitalının, xüsusilə də dövlət qulluğunun insan potensialının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, multidissiplinar yanaşmaya əsaslanan müvafiq təlim kurrikulum, modullar hazırlanmış və təlimlər təşkil edilmişdir. Bütövlükdə layihə çərçivəsində dövlət qulluqçuları üçün 20 yeni təlim modulu hazırlanmış və 500-ə yaxın dövlət qulluqçusu üçün təlim keçirilmişdir. Müxtəlif müddətli fokus qruplar üçün daim yenilənən və distant formada təşkili mümkün olan aşağıdakı təlimlər paketi formalaşdırılmışdır:"Azərbaycanın davamlı inklüziv inkişaf sahəsinə liderliyini təmin edən innovative dövlət idarəçiliyi texnologiyaları", "Dəyişikliklərin idarə edilməsi", "İnsan resurslarının idarə edilməsində fəaliyyət analizlərinin aparılması", "Müasir dövrdə insan resurslarının idarə edilməsində informasiya sistemləri", İnsan resurslarının idarə edilməsində sinergetik texnologiyalar" və s. Təlimlərin davamlılığının təmini məqsədilə 2021-ci il üçün yeni qrafik işlənilmişdir. |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi- tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Layihənin nəticələrindən Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya", Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın reallaşdırılması zamanı istifadə edilə bilər. Eyni zamanda bu nəticələr regional səviyyədə dövlət qulluqçularının peşəkar inkişafına dair elmi tədqiqatların əsasını təşkil edə bilər. Bütövlükdə tədqiqatın nəticələri ölkədə davamlı inkişafının təmin olunmasının innovativ texnologiyası kimi regional kadr hazırlığı sisteminin formalaşdırılmasına, bu sistemin səmərəliliyinin artırılmasına, kadr potensialının təkmilləşdirilməsinə və dövlətin sosial siyasət tədbirinin formalaşdırılmasına kömək edəcəkdir. Həmçinin tədqiqatın nəticələri dövlət strukturları, yerli hakimiyyət orqanları, bu sahədə çalışan ictimai təşkilatlar, sahibkarlar üçün faydalı olacaqdır. Tədqiqat işində irəli sürülən təkliflərdən bir sıra metodoloji məsələlərin həllində, kadr hazırlanması ilə bağlı müvafiq kursların tədrisində, habelə elmi-tədqiqat işlərində, tədris prosesində dərs vəsaitləri və metodiki göstərişlərin hazırlanması işində və s. istifadə olunacaqdır. |

| | |
|---|---|
| **SİFARİŞÇİ:** | **İCRAÇI:** |
| **Elmin İnkişafı Fondu** | |
| **Aparıcı məsləhətçi** | **Layihə rəhbəri** |
| **Hüseynzadə Leyla İlqar qızı** | **Rəhimli Rəcəb Zakir oğlu** |
| ______________ **(imza)** | ______________ **(imza)** |
| **"13" aprel 2021-ci il** | **"13" Aprel 2021-ci il** |

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun**
**"Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin**
**(EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Strateji Yol Xəritəsinin reallaşdırılması və davamlı inkişaf üçün regional idarəetmə kadrları hazırlığı**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Rəhimli Rəcəb Zakir oğlu**
Qrantın məbləği: **24 900 manat**
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/06/5-M-12**
Müqavilənin imzalanma tarixi: **24 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 oktyabr 2020-ci il – 01 aprel 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Məqalələr<br><br>həmçinin xarici nəşrlərdə | 1.Rəcəb Rəhimli, Anar Həsənov. "Dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin artırılması: kadr hazırlığı və səriştə modelinə keçid". **UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası. "İnsan və Biosfer" (MaB, UNESCO) Azərbaycan Milli Komitəsinin əsərləri. Ekoloji Sivilizasiya, Davamlı İnkişaf, Ətraf Mühit. İllik nəşr, Bakı, Təhsil, (15) 2020, s. 165-182** | (Çapdadır) | |
| | | 2. Rahimli Rajab Zakir, Dadashova Ramila Behlul, Omarov Vahid Allahverdi. "Formation of Regional Staff Training System at a New Level By The Application of Multidisciplinary Approaches and Information and Communication Technologies". ***Magyar Tudomanyos Journal, № 49 (2021), Budapest, Hungary. pp.36-40 http://magyar-journal.com/wp-content/uploads/2021/03/Magyar_49.pdf* (29.01.2021).** | Çap olunub | |
| | | | | |
| | | | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri<br><br>həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| | | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

1. **İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Səmərələşdirici təklif | | | |

## 2. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | "Dövlət qulluqçularının potensialının artırılması" mövzusunda İxtisasartırma kursu | Ölkədaxili | Plenar (Online) | Respublika üzrə dövlət və bələdiyyə orqanlarının rəhbər vəzifələrində çalışan 150-dən çox dövlət qulluqçusu üçün distant formada ixtisasartırma kursu təşkil edilib. |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Aparıcı məsləhətçi**
**Hüseynzadə Leyla İlqar qızı**
_______________
**(imza)**
"13" aprel **2021-ci il**

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Rəhimli Rəcəb Zakir oğlu** _______________
**(imza)**
"13" Aprel **2021-ci il**